*Otluqbeli savaşının acı nəticələrini Uzun Həsən, qələbə şirinliyini isə Sultan II Mehmet yaşasa da, tərəflər sakitləşmək - qalib gələn öz qələbəsi, məğlub olan tərəf isə məğlubiyyəti ilə barışmaq fikrində deyildi. Doğrudur, Sultan II Mehmet Ağqoyunlulardan əsas ərazi iddialarını bu savaşla gerçəkləşdirmiş, Anadolu ərazilərini nəzarətinə götürmüşdü.*

*Uzun Həsən illərin təcrübəsindən və Osmanlı sultanının təbiətindən irəli gələn qənaətlərini bir araya gətirib belə fikrə gəldi ki, əgər birbaşa Təbrizə doğru geri çəkilsə, Sultan II Mehmet onu paytaxtın özündə də olsa, döyüşə çəkəcək. Bu da dinc əhalinin böyük fəlakətinə səbəb olar, şəhər isə dağıntıya məruz qalardı. Ona görə də Uzun Həsən məğlubiyyətdən sonra qoşunun pərakəndəliyini aradan qaldırmaq və öz qüvvələrinə dinclik vermək üçün ərzaq ehtiyatının saxlandığı uzaq İraq çöllərinə tərəf üz tutdu. Onsuz da Sultan II Mehmet də müharibə meydanını Azərbaycan ərazisinə keçirməyi qət eləmişdi.*

*Sultan II Mehmetin ordusu sayca çox üstün olsa da, bu ordunun başqa çətinlikləri də vardı. Avropa xristianlarından aldığı qüvvələri də Sultan II Mehmet Ağqoyunluların üzərinə göndərməyə qərar vermişdi. Amma iş burasındaydı ki, Sultan II Mehmetin ordusu Otluqbeli savaşında qalib gəlmiş olsa da, bu qələbə Osmanlılara çox baha başa gəlmişdi. Ordu həddən artıq çox itki vermiş, əzilmiş və ruhdan düşmüşdü. Sultan II Mehmet də hiss edirdi ki, muzdla cəlb edilmiş qüvvələr daha uzaqlarda vuruşmağa meylli deyil. Çünki qələbədən sonra muzdlu qüvvələr vəd edilmiş qənimətləri ala bilməmişdilər. Uzun Həsənin xəzinəsinin talan edilməsi müqabilində muzdlu qüvvələrə pay çatmalıydı. Uzun Həsən Ağqoyunluların xəzinəsini də özü ilə uzaqlara daşıtdırmış və bu xəzinənin Sultan II Mehmetin əlinə keçməsinə imkan verməmişdi. Sultan II Mehmet isə ən yaxşı vaizlərini, saray mübəlliğlərini ordunun içərisinə göndərir, onlar Osmanlıların məğlubedilməzliyi, şöhrəti haqqında ardıcıl və bitib-tükənməyən söhbətlər aparırlar... amma Sultan II Mehmet görür ki, bu söhbətlərin elə də bir dəyəri olmur. Belə olduğu halda bir gün Sultan II Mehmet ordu içərisinə gəlir, özünün uydurması olan bir yuxu danışır. Yuxudan belə bir nəticə hasil olur ki, Sultan II Mehmet haqqın tərəfindədir və haqqın tərəfində olan şəxsin qılıncı ayın qabağını örtən qara buludları çox asanlıqla kəsib doğrayır. Qara bulud layları düşmən qoşununun üstünə tökülür və onlar selə-suya qərq olurlar. Sarayın yuxu yozanları da belə bir inam təlqin eləyir ki, tezliklə Osmanlıların Ağqoyunlular üzərində parlaq bir qələbəsi olacaq, Ağqoyunlu ərazilərinin bütün varı-dövləti onların əlinə keçəcəkdi.*



***Hüseynbala MİRƏLƏMOV***

# İKİ ŞAH, İKİ SULTAN

## (romandan parçalar)

*(Əvvəli ötən saylarımızda)*

Beləliklə, Sultan II Mehmet ordusunu yenidən təkmilləşdirib və daha çox qüvvə ilə Uzun Həsənin arxasınca göndərir. Qoşunun ümumi komandanlığı Osmanlıların hərbi yürüşlərində ad çıxarmış Xasmurad adlı sərkərdəyə həvalə olunur. Sultan II Mehmet oğlanları arasında igidliyi və çevikliyi ilə seçilən Bəyazid Mustafanı da ona qoşur. Osmanlı hökmdarı bilirdi ki, onun yeni döyüşə hazırlaşmağı haqqında tezliklə Uzun Həsən xəbər tutacaq. Onu da biləcək ki, bu döyüşə Sultan II Mehmet özü başçılıq etməyəcək. Bununla da Sultan II Mehmet Ağqoyunlu hökmdarına belə bir üstüörtülü xəbər göndərirdi ki, sən o qədər zəifsən ki, hətta bu döyüşə özüm belə qoşulmağa lüzum görmürəm.

Bəs Ağqoyunlu ordusunda durum neceydi? Uzun Həsənin bütün hərəkətlərini Sultan II Mehmet necə izləyirdisə, Ağqoyunlu hökmdarı da onu eləcə izləyirdi. Haqqında hər cür məlumatı vaxtında alır, hər hansı bir məsələnin nə demək olduğunu yetərincə düşüncədən keçirirdi. Uzun Həsən hərbi hərəkət baxımından Sultan II Mehmetdən çox çevik idi. Həm də Uzun Həsən Sultan II Mehmetdən fərqli olaraq bütün qüvvələrini ölkənin öz adamlarından cəmləmişdi. Onun qənaətinə görə insanlar öz torpaqları uğrunda vuruşmağı hər cür puldan, qənimətdən üstün bilirlər. Uzun Həsən öz döyüşçüləri arasında tez-tez olur. Ayrı-ayrı dəstəbaşılarla yaxından görüşür, dilləşir, gələcək döyüşlər üçün onların nə düşündüyünü öyrənməyə çalışır. Uzun Həsən hiss edir ki, onun ordusu Otluqbeli savaşındakı məğlubiyyətdən heç də sınmayıb. Hətta ordunun ölkəylə, Vətənin taleyi ilə bağlı narahatlıq, nigarançılıq ifadə edən münasibəti də Uzun Həsəni sevindirirdi. O, yaxşıca anlayırdı ki, döyüşdə kimin qalib gəlməsi döyüşçünün döyüşə öz düşüncəsində necə hazırlaşmasından çox asılıdır. Ayrı-ayrı böyük dəstələr önündə Uzun Həsən öz döyüşçüləri ilə bir ata, böyük qardaş, müdrik insan kimi danışırdı. Ən başlıcası, onun toplum qarşısında aydın və parlaq nitqi döyüşçülərin bütün vücuduna sirayət eləyirdi.

Vaxt qısalırdı. Osmanlıların yüz minlik qoşunu artıq Fərat sahillərinə çatmaqda idi. Və döyüş qabağı Uzun Həsən öz sərkərdələri önündə sonuncu dəfə at belində görünməli oldu.

Uzun Həsənə döyüş üçün xüsusi atlar bəslənilirdi. Həm də bu zaman atlar elə təlim edilirdi ki, süvarinin hər hansı bir hərəkətini döyüş zamanı düzgün hiss edir və sahibinin istəyinə uyğun manevrlərlə cavab verirdi.

Ağqoyunlu sərkərdəsi onsuz da özü uzun adam idi. Hündür sağrılı Qarabağ atının üstündə də o, xüsusilə əzəmətli görünürdü. Uzun Həsən son vaxtlaracan demək olar ki, bütün hərbi yürüşlərdə öndə olur, çox vaxt mühafizəçilərinin də arasından keçib düşmən sırasına girirdi. Cəld və sərrast qılınc işlətməyi, düşmən tərəfinin təhlükəli hədəfinə sərrast nizə atmağı, üzərinə hücuma keçən qüvvədən vaxtında yayınmağı... çox ustalıqla bacarırdı. İndi qoşunun önündə dayanmış bu əzəmətli sərkərdənin məğrur görkəmi minlərlə ona zillənmiş gözlərdə inam işığına çevrilir. Onların qəlbində qürur və iftixar hissi duyururdu. Onun səsindəki əzəmət sanki döyüşçülərin varlığına axır, damarlarında qana qovuşur, onlara güc bəxş eləyirdi.

- Mənim igidlərim... Ağqoyunlu səltənətinin ər oğulları. Sizin atalarımızın, bizim hamımızın, ulularımızın acdığı yoldan kənara çıxmamışıq. Onlar bizə, soyumuza uyğun yol qoyublar. Dövlətimizin əsası, səltənətimizin bünövrə daşı bizdən əvvəlkilərin əli ilə qoyulub. Biz də əslində, bizə əmanət olanı qorumaq niyyətindəyik. Biz kimsənin torpağına göz dikməmişik. Yaxşı olardı ki, kimsə də bizim torpağımıza göz dikməsin. Amma iş ki, gəlib bu yerə çatıb, biz canımızla, qanımızla adımızı, sanımızı, demək, həm də böyük Ağqoyunlu səltənətini qorumağa hazır olmalıyıq. Əgər bu yolda mən düşmən qılıncı ilə parçalansam da, inanıram ki, Ağqoyunlunun saysız igid oğulları bu yolu axıracan aparacaq. Hamınıza məlum olduğu kimi, son döyüşdə mən oğlanlarımı itirdim, ancaq bu, məni sındırmadı, çünki bilirdim savaşım haqq savaşıdır. Yenə də elə bu fikirdəyəm. Biz ya Ağqoyunlu səltənətinin xəzinəsini Sultan II Mehmetə verməli, onun önündə diz çökməli, əbədi şöhrətimizdən keçməliyik. Ağqoyunlu səltənəti ayrı-ayrı səltənətlərə bölünüb Osmanlıların tabeliyində təhqiramiz bir zaman yaşayası olmalıdır, ya da bütün varlığımızla öz həqiqətimizi qorumağa qalxmalıyıq. Bu həqiqət isə bizə canımızdan əziz olan yurdumuzdur. Sizə qalibiyyətli döyüş arzulayıram. Heç nədən çəkinməyin. Tanrı bizim tərəfimizdədir. Bizim ayağımızın altındakı torpaq özümüzündür. Ona görə də ayağımızın altından qaçmayacaq. Tanrı sizə yar olsun!

Qoşunun içərisindən gurultulu səs-sədayla cavablar gəldi. Hamı bir ağızdan səslənirdi.

- Var olsun Uzun Həsən! Əbədi var olsun Ağqoyunlu səltənəti! Düşmən layiqli cavabını alacaq!

Uzun Həsən bu səsləri, sədaları dinlədikcə qəlbi dağa dönür, özünü və qoşununu məğlubedilməz sanır, bu inamın Osmanlıların yüz minlik qoşunundan daha üstün olduğuna şəkk etmirdi.

Bu vaxt Uzun Həsənə xəbər verdilər ki, düşmən qoşunu Fərat yaxınlığındakı Malatya ərazisində mövqelər tutmaqdadır.

Qəflətən Uzun Həsən düşmən tərəfi göstərib öz qoşununa hay vurdu.

- Hə, indi meydan qorxmazlarındı, irəli igidlər!

Uzun Həsən daha heç nə deməyib atını düşmən tərəfə döndərdi. Və dördnala çapdı. Şahı qoruyan qüvvələr ona özlərini güc-bəla yetirdilər. Ordu hər tərəfdən hərəkətə gəldi.

Döyüşün necə olacağı, kimin necə, hardan hücuma keçəcəyi barədə özünün komandanlarına aydın tapşırıqlar vermişdi. O, bilirdi ki, az qala iki dəfə, bəlkə, üç dəfə çox olan qüvvəyə qarşı hərbi fəndlər işlətmədən qalib gəlmək olmaz. Günortaya yaxın, üzbəüz çarpışmanın ən şiddətli məqamında mərkəz hissəsinin geri çəkilməsi üçün Uzun Həsən göstəriş verdi. Əmr tezliklə mərkəz hissənin komandanlığına ötürüldü. Mərkəz hissə əks həmlələrlə geri çəkildi. Bu vaxt Xasmurad özü də hündür bir yerdən döyüşü izləyirdi. Ordunun mərkəz hissəsinin geri çəkildiyini görəndə, o, belə qənaətə gəldi ki, qələbə nəinki qılıncının ucunda, lap elə burnunun qabağındadır. Özü də sürətlə irəliləyən qoşunun qabağına düşdü. Osmanlı qoşunu geri çəkilən Ağqoyunluları təqib eləməyə başladı. Artıq xeyli irəliləmiş Osmanlıların əsas qüvvələrini yanlardan sıxışdırmaq olardı. Və Uzun Həsən belə də etdi.

Osmanlı qüvvələrinin əsas hissəsi beləcə mühasirəyə alındı. Mühasirədə müqavimət göstərilən bütün qüvvələr məhv edildi. Ayrı-ayrı mənbələrin göstərdiyi məlumatlara görə Xasmurad da həmin döyüşdə öldürülmüşdü.

Demək olar ki, Osmanlı qüvvələri tam başlı-başına qalmışdı. Çünki Sultan II Mehmetin ümidi olan sərkərdələr də Uzun Həsənin hərbi fəndinin tələsinə düşmüşdü. Ömər bəy, Hacı bəy, Əhməd Çələbi xeyli qoşunla əsir alınmışdı.

Bu xəbər Sultan II Mehmetin sarayına çatanda, Osmanlı divanında tamam bir çaşqınlıq yarandı. Demək olar ki, yüz minlik ordu Uzun Həsənin çox az qüvvələri ilə məhv edilmiş, pərən-pərən olunmuşdu. Adlı-sanlı sərkərdələr artıq yox idi. Sultan II Mehmet başına döyüb, fəqan eləyəndə, başa düşmüşdü ki, Uzun Həsən nə Cahanşaha, nə də Əbu Səidə təsadüfi qalib gəlməyib. Axı onlar da dövrünün görkəmli sərkərdələri idilər. Demək, döyüşdə qüvvədən başqa amillər də mütləq nəzərə alınmalıdır.

Tarix göstərir ki, müharibələr nə qalib gələn tərəfə, nə də məğlub olan tərəfə əbədi xoşbəxtlik bəxş eləmir. Həmişə ən dəhşətli təəssüflər müharibədən sonrakı zamanda düşüncələrə hakim kəsilir. Dəhşətli insan qırğınları ilə yadda qalan qələbələri belə insanlar acı təəssüflə qarşılayırlar. Məğlub olan tərəfi isə müharibə istəyinə görə elə öz nəsilləri lənətləyir.

Uzun Həsən Malatyadakı böyük qələbəni sonuncu döyüşlə əbədiləşdirə biləcəyinə inanmırdı. Çünki o, yaxşı bilirdi Osmanlı sultanı II Mehmet onunla daha qəti savaşa girmək üçün planlar hazırlayacaq. Bir an da dayanmadan qüvvə toplayacaqdı. Söz yox, Uzun Həsən də əlini əlinin üstünə qoyub oturmayacaqdı. Bütün bu zaman ərzində Osmanlı sultanı II Mehmet dəhşətli məğlubiyyətin acısını necə çəkirdisə, Uzun Həsən də özünə dayaq bildiyi insanların - övladlarının itkisi sarıdan dərd çəkirdi.

Hökmdarların nə qələbəsi, nə də məğlubiyyəti tarixi yolundan dayandırmır. Yalnız ona hərəkət verir, istiqamət verir.

***(Davamı var)***